## Riyaziyyat

1. $|x-3| \leq 1$ bərabərsizliyinin tam həllər sayını tapın.
A) 1 B) 2 C) 3
D) 4 E) 5

2. $a_n$ ədədi silsilədə $a_1 + a_5 + a_7 = 21$ olarsa, $a_2 + a_3 + a_8$ cəmini tapın.
A) 12 B) 20 C) 42
D) 24 E) 21

3. $2x^2 - 3x - 9 = 0$ tənliyinin kökləri hasilini tapın.
A) 2,5 B) 3 C) 1,5 D) -4,5 E) -9

4. $f(x) = x^2 - 6x + 11$ funksiyasının qrafikinin təpə nöqtəsinin koordinatları cəmini tapın.
A) 4 B) 6 C) 5
D) 7 E) 3

5. Rombun iti bucağı 70° olarsa, onun kiçik diaqonalı ilə tərəfi arasındakı bucağı tapın.
A) $30°$ B) $45°$ C) $65°$
D) $20°$ E) $55°$

6. $\begin{cases} x - y = 11 \\ 3x + 5y = 5 \end{cases}$ tənliklər sistemindən $x+y$ cəmini tapın.
A) -9 B) 8 C) 12
D) 4 E) -6

7. Katetləri 3 sm və 4 sm olan düzbucaqlı üçbucağın kiçik hündürlüyünü tapın.
A) 2 B) 3,2 C) 1
D) 2,4 E) 1,8

8. $\dfrac{a-4}{\sqrt{a}-2}$ kəsrini ixtisar edin.
A) $\sqrt{a}+2$ B) $\sqrt{a}-2$
C) $\sqrt{a}+4$ D) $\sqrt{a}-4$
E) $\sqrt{a}-16$

9. Kvadratın perimetri 44 sm olarsa, onun sahəsini tapın.
A) 88 $sm^2$ B) 121 $sm^2$ C) 132 $sm^2$
D) 172 $sm^2$ E) 100 $sm^2$

10. $\overline{123a}$ dördrəqəmli ədədinin 10-a bölünməsindən alınan qalıq 3 olarsa, $a$-nı tapın.
A) 5 B) 2 C) 4
D) 7 E) 3

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

The/BirlikTeam1

11. $b_n$ həndəsi silsiləsində $b_2 = 12, b_4 = 48$ olarsa, $b_1 + b_3$ cəminin böyük qiymətini tapın.
A) 64 B) 60 C) 30
D) 96 E) 74

12. Banu bir işin 35%-ni 14 saata görərsə , bu işin $\frac{2}{5}$ hissəsini neçə saata görər?
A) 22 B) 24 C) 18
D) 20 E) 16

13. Ədədi silsilədə $a_{15} = 8$ olarsa, bu silsilənin ilk 29 həddinin cəmini tapın.
A) 320 B) 240 C) 232
D) 168 E) 200

14. $f(x) = kx - 3$ funksiyasının qrafiki $(2; -1)$ nöqtəsindən keçərsə $f(5)$-i tapın.
A) 6 B) 7 C) 3
D) 4 E) 2

15. $AB$ parçası $A$ nöqtəsindən başlayaraq $C$ nöqtəsi ilə $4:5$ nisbətində bölünmüşdür. $AC = 12$ sm olarsa, AB-ni tapın.
A) 18 B) 36 C) 22,5
D) 13,5 E) 27

16. $a$ parametrinin hansı qiymətində $x^3 + ax$ çoxhədlisinin vuruqlarından biri $x - 1$ olar?
A) 3 B) 2 C) -1 D) -2 E) 1

17. $O$ mərkəzli çevrədə $AB \parallel CD$, $\overset{\frown}{AnB} = 76°$ olarsa, $\angle AED$-ni tapın.




A) $26^0$ B) $34^0$ C) $18^0$
D) $24^0$ E) $32^0$

18. ABCD düzbucaqlı trapesiyadır. ΔACD bərabərtərəfli üçbucaq, BC= 4 sm olarsa, trapesiyanın sahəsini tapın.




A) $24\sqrt{3}$ B) 48 C) $12\sqrt{3}$
D) $18\sqrt{3}$ E) 36

19. $A$ və $B$ çoxluqları üçün $n(A) = n(B)$, $n(B \setminus A) + n(A \setminus B) = 6$ və $n(A \cap B) = 2$ olarsa, $n(A)$-ni tapın.
A) 5 B) 6 C) 7
D) 8 E) 9

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam1

20. $k$ −nın hansı qiymətində $A(k-2; k^2-5k-6)$ nöqtəsi absis oxu üzərində müsbət tərəfdə yerləşər?
    A) 4 B) 3 C) 5 D) 6 E) 2

21. $ABC$ üçbucağında $AD$ tənbölən, $AC = 9\ sm$, $CD: BD = 3: 4$ olarsa, $AB$-ni tapın.
    A) 9 sm B) 10 sm C) 8 sm
    D) 12 sm E) 11 sm

22. $y = \sqrt{9-x^2}$ funksiyasının təyin oblastını tapın.
    A) $[1; 4]$ B) $(0; 9]$ C) $[-3; 3]$
    D) $[3; +\infty)$ E) $(0; +\infty)$

**Açıq tipli test tapşırıqları:**

23. Tərəfləri 5 sm və 10 sm olan bərabəryanlı üçbucağın perimetrini tapın.

24. $\frac{4}{\sqrt{5}-1}$ ədədinin tam hissəsini tapın.

25. $\frac{2x-14}{x+3} < 0$ bərabərsizliyinin tam həllərininin cəmini tapın.

26. İlk $n$ həddinin cəmi $S_n = n^3 + 2n$ düsturu ilə hesablanan ardıcıllıqda $a_4$-ü tapın.

27. Kvadrat tənliklər üçün uyğunluğu müəyyən edin.
    1. $x^2 + (m+5)x + m - 4 = 0$
    2. $x^2 - 3x + m^2 + 3 = 0$
    3. $x^2 + (m+1)x + m - 2 = 0$
    a. $m = -5$ olduqda kökləri qarşılıqlı əks ədədlərdir.
    b. $m$-in istənilən qiymətində kökləri cəmi 4-ə bərabərdir.
    c. $m$-*in* istənilən qiymətində tənliyin həqiqi kökü yoxdur
    d. $m = 0$ olduqda tənliyin kökləri hasili 1-ə bərabərdir.
    e. $m = 3$ olduqda tənliyin kökləri qarşılıqlı tərs ədədlərdir

**Situasiya**

Kinoteatr zalında hər sıradakı yerlərin sayının sıranın nömrəsindən asılılığı $y = x^2 - 6x + 20$ kimidir(x sıra nömrəsi, y isə həmin sıradakı yerlərin sayı).Zaldakı biletlərin 60-ı uşaqlara,qalanı isə böyüklərə satılmışdır.

28. Hansı sırada yerlərin sayı ən azdır və neçədir?

29. Zalda böyüklər üçün ayrılan yerlərin sayı uşaqlar üçün ayrılıan yerlərin sayının üç mislindən bir vahid çoxdur.Böyüklər üçün ayrılan yerlərin sayı neçədir?

30. Beşinci sıradakı yerlərin sayını neçə faiz artırmaq lazımdır ki, yerlərin sayı 20-yəbərabər olsun?

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

Time/BilikTeam1

## Coğrafiya

31. Hansı sıralarda uyğunluq ***pozulmuşdur*** ?

| | Çaylar | Əsas qida mənbəyi | Aid olduğu hövzə |
|---|---|---|---|
| 1. | Viləşçay | yağış | Talış dağları |
| 2. | Qusarçay | Qar və buzlaq | Böyük Qafqazın şimal-şərqi |
| 3. | Əlincəçay | yağış | Abşeron-Qobustan |
| 4. | Araz | yeraltı | Kür |
| 5. | Ceyrankeçməz | Qar və buzlaq | Talış dağları |

A) 2,3　B) 1,4　C) 2,5
D) 3,5　E) 1,3

32. Aşağıdakı xüsusiyyətlər hansı iqlim qurşağı üçün səciyyəvidir?
*- Orta illik temperaturu $20^0$ C-dən yüksəkdir*
*- Atmosfer təzyiqi yayda aşağı, qışda isə yüksək olur*
*- Yağışlı və quraq mövsümlər bir-birini əvəz edir*
A) ekvatorial　B) subtropik
C) mülayim　D) tropik
E) subekvatorial

33. Hansı sıralarda uyğunluq ***pozulmuşdur*** ?

| | Materik | Qırışıqlıq | Dağ sistemi |
|---|---|---|---|
| 1 | Avrasiya | Kaledon | Kunlun |
| 2 | Cənubi Amerika | Alp | And |
| 3 | Afrika | Hertsin | Kap |
| 4 | Avstraliya | Hertsin | Sudet |
| 5 | Şimali Amerika | Kimmeri | Kordilyer |

A) 2, 3　B) 1, 4　C) 2, 5
D) 1, 5　E) 3, 4

34. Verilən iqlim diaqramı hansı iqlim tipini əks etdirir




A) Qışı soyuq keçən yarımsəhra və quru-çöl iqlimi
B) Qışı quraq keçən mülayim-isti iqlim
C) Qışı mülayim keçən yarımsəhra və quru-çöl iqlimi
D) Yayı quraq keçən soyuq iqlim
E) Yayı quraq keçən mülayim-isti iqlim

35. Hind okeanı hövzəsinə aid olan çay:
A) Parana　B) Fərat　C) Nil
D) Mekonq　E) Konqo

36. Şəkildəki dərə formasını və uyğun çayı müəyyən edin.



A) meandr - Missisippi
B) kanyon - Kolorado
C) troq - Makkenzi
D) meandr - Nil
E) V şəkilli - Konqo

37. Şəkildə hansı qitənin relyef profili təsvir olunmuşdur ?




A) Cənubi Amerika　B) Asiya
C) Antarktida　D) Avstraliya
E) Avropa

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BirlikTeam

38. Uyğunluğu müəyyən edin.
I- Materik mənşəli adalar
II- Mərcan mənşəli adalar
III- Vulkanik mənşəli adalar




A) I- 1,5 ; II- 2,6 ; III- 3,4
B) I- 2,6 ; II- 4,5 ; III- 1,3
C) I- 2,4 ; II- 1,3 ; III- 5,6
D) I- 1,4 ; II- 3,6 ; III- 2,5
E) I- 3,5 ; II- 1,6 ; III- 2,4

39. Əsasən qışda yağıntı düşən adalar və yarımadalar:
1. Arnemlend yarımadası
2. Pireney yarımadası
3. Yapon adaları
4. Apennin yarımadası
5. Keyp-York yarımadası
6. Balear adaları
A) 2, 3, 4 B) 2, 4, 6 C) 2, 3, 5
D) 1, 5, 6 E) 1, 2, 3

40. 21 mart tarixində Günəş Bakıda 06:42-də çıxır. Eyni enlikdə yerləşən məntəqədə həmin gün Günəş Bakı vaxtı ilə 19:22 batır. Bu məntəqə ilə Bakı arasındakı məsafə 1: 2 000 000 miqyaslı xəritədə neçə sm olar ?
A) 22, 2 B) 84, 5 C) 42,7
D) 18, 9 E) 14, 6

41. Sakit okean hissələri:
1. Cənubi Çin dənizi 2. Biskay körfəzi
3. Benqal körfəzi 4. Alyaska körfəzi
5. Tasman dənizi 6. Çukot dənizi
A) 1, 2, 5 B) 3, 5, 6 C) 3, 4, 6
D) 2, 3, 6 E) 1, 4, 5

42. Çay yatağının eni 4 m, dərinliyi isə 2 m-dir. Çayın axın sürəti 4 m/saniyə olarsa, su sərfini hesablayın.
A) 64 $m^3$/san B) 32 $m^3$/san
C) 16 $m^3$/san D) 4 $m^3$/san
E) 8 $m^3$/san

43. Aşağı duzluluğa malik olan okean hissələrini müəyyən edin.




A) 1,2,6 B) 3,4,5 C) 2,4,6
D) 1,3,5 E) 1,2,4

44. İl ərzində hava şəraiti dəyişməyən ölkələr:
A) Hindistan, Qazaxıstan, Meksika
B) Fransa, Nigeriya, Misir
C) Rusiya, Kanada, İndoneziya
D) Braziliya, İndoneziya, Konqo
E) İspaniya, Türkiyə, Azərbaycan

45. Uyğunluğu müəyyən edin.
1. Mülayim qurşaq
2. Subekvatorial qurşaq
3. Ekvatorial qurşaq
a. Keçid iqlim qurşağıdır
b. İlboyu isti və rütubətli iqlim xarakterikdir
c. Çox soyuq temperatur və az yağıntı düşməsi ilə fərqlənir
d. Yüksək temperatur, az yağıntı və quraq hava şəraiti xarakterikdir
e. Fəsillər aydın müşahidə olunur
A) 1-c ; 2-d ; 3-e B) 1-e ; 2-b ; 3-d
C) 1-e ; 2-a ; 3-b D) 1-d ; 2-e ; 3-a
E) 1-c ; 2-e ; 3-b

46. Şərqi Asiyada qış ayları üçün uyğun olan "külək gülü"nü müəyyən edin.




Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/Birlikteam1

47. İqlim diaqramı hansı əraziyə uyğun gəlir ?




A) Antarktida B) Böyük Səhra
C) Qrenlandiya D) Mərkəzi Asiya
E) Sibir

48. Yarımsəhra və quru çöl, mülayim-isti, və soyuq iqlim tiplərinin səciyyəvi olduğu müvafiq ərazilər:




A) 1, 2, 3 B) 3, 1, 2 C) 3, 2, 1
D) 2, 1, 3 E) 1, 3, 2

49. Qrafikə əsasən orta sutkalıq temperaturu hesablayın.




A) 3° B) 2° C) 0,5° D) 1° E) -1°

50. Aşağdakı xüsusiyyətlər hansı düzənlik üçün səciyyəvidir?
- *Subarktik və mülayim iqlim qurşağında yerləşir*
- *Platforma sahəsinə uyğun gəlir*
- *Axarsız (daxili) hövzənin ən böyük çayı axır*

A) Şərqi Avropa düzənliyi
B) Turan ovalığı
C) Mərkəzi düzənliklər
D) Böyük Çin düzənliyi
E) Hind-Qanq ovalığı

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

51. Uyğunluğu müəyyən edin.




A) 3- Braziliya , 2- Qvineya, 4- Bengel
B) 3- Folklend, 5- Qərb küləkləri, 6- Kurosio
C) 1- Kaliforniya, 5- Peru, 8- Qolfstrim
D) 2- Somali, 3- Braziliya , 4- Kanar
E) 2- Kanar, 4- Bengel, 5- Qvineya

52. İşıqlanma qurşaqlarına əsasən uyğunluğu müəyyən edin.

| | | |
|---|---|---|
| 1. | Tropik qurşaqda gecə və gündüzün uzunluğu az dəyişir | yanlış |
| 2. | Qütb qurşağında fəsillər aydın müşahidə olunur | doğru |
| 3. | Qütb dairəsi ilə qütb arasında qütb işıqlanma qurşağı yerləşir | doğru |
| 4. | Tropik qurşaqda gecə və gündüzün adi növbələşməsi pozulur | yanlış |
| 5 | Mülayim qurşaqda Günəş ilboyu zenitdə olur | doğru |

A) 1,4 B) 3,4 C) 2,5
D) 2,3 E) 1,5

**Açıq tipli test tapşırıqları:**

53. Düzgün fikirləri seçin.
1. Yağıntıların illik miqdarı Xəzər dənizi sahillərindən dağlara doğru tədricən artır
2. Ən az yağıntı Abşeron yarımadasının cənub-qərb hissəsinə düşür
3. Kür-Araz ovalığından Kiçik Qafqaz dağlarına doğru yağıntı azalır
4. Talış dağlarında yüksəkliyə doğru yağıntıların miqdarı azalır
5. Naxçıvanın Arazboyu düzənliyinə 1000 mm-dən çox yağıntı düşür

54. Orta duzluluğa malik 3 ton okean suyundan neçə kq duz almaq olar ?

55. Doğru olan ifadələri seçin.
1. Çobandağ və Bozdağ silsiləsi Kiçik Qafqaz tektonik qalxma zonasına daxildir
2. Azərbaycanda Kaynazoy erasının çöküntüləri daha geniş yayılmışdır
3. Kür tektonik çökmə zonası filiz faydalı qazıntılarla zəngindir
4. Psevdovulkanlar Qarabağ vulkanik yaylasında üstünlük təşkil edir
5. Azərbaycan Alp- Himalay seysmik zonasında yerləşir
6. Böyük Qafqaz tektonik zonasında Mezozoy erasının süxurları geniş yayılmışdır

56. $10^0$C temperatura malik 1 $m^3$ havanın nisbi rütubəti 70 % olarsa, havanın doyması üçün çatışmayan rütubət miqdarını qramla müəyyən edin ($10^0$C –də 1 $m^3$ havada mümkün ola biləcək su buxarı 9 q-dır) .

57. Uyğunluğu müəyyən edin.
1- Şelf
2- Nov
3- Materik yamacı




**Situasiya**

***Sizə təqdim olunmuş xəritə-sxemə əsasən 58 - 60 –cı sualları cavablandırın. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.***




58. Çayları hövzələr üzrə qruplaşdırıb qeyd edin (cədvəldə nümunə verilmişdir)

| Sakit okean | Atlantik okean | Hind okeanı | Şimal Buzlu | Axarsiz hövzə |
|---|---|---|---|---|
| | 11- Konqo | | | |

59. Hansı çaylar suvarma əhəmiyyətli deyil ? (Ən azı 2 çay qeyd olunmalıdır)

60. a) 19 nömrəli çay səhra ortasından keçməsinə baxmayaraq, yay aylarında niyə qurumur, əksinə bolsulu olur? (Çayın adı qeyd olunmalıdır)

b) Bu çay hansı gölə tökülür ?

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BilikTeam1

## Tarix

61. Orta Paleolit dövrünə aid xüsusiyyətləri müəyyən edin:
1.İnsanların təbiət qüvvələri ilə bağlı dini təsəvvürləri yaranmağa başladı
2.Eramızdan 35 min il əvvələ qədər davam etmişdir
3.Nitq əlverişli ünsiyyət vasitəsi oldu
4.Ulu icmanı qəbilə icması əvəz etdi
5.Azıx, Tağlar, Zar Daşsalahlı və Qazma mağaraları əsasında öyrənilmişdir
6.İbtidai əkinçilik meydana gəlmişdir
A) 1,3,5 B) 1,2,5 C) 2,3,4
D) 4,5,6 E) 2,4,6

62. Verilənlərin aid olduğu Osmanlı hökmdarını müəyyən edin:
*- Bolqarıstanı tabe edərək Balkan yarımadasında Osmanlının mövqelərini daha da gücləndirdi.*
*- Konstantinopol ətrafında istehkam və qalalar inşa etdirdi.*
A) Sultan Murad B) Sultan Süleyman
C) Orxan Qazi D) Osman Qazi
E) I İldırım Bəyazid

63. II Vaçenin dövründə Albaniya dövlətində baş vermiş yenilik:
A) Xristinalığın dövlət dini elan edilməsi
B) Aquen kilsə məclisinin çağırılması
C) Arşaki sülaləsinin hakimiyyətə gəlməsi
D) Paytaxtın köçürülməsi
E) Albaniya Sasanilərin şimal canişinliyinin ("Azərbaycan kustu"nun) tərkibinə daxil edilməsi

64. Verilən xüsusiyyətlərin aid olduğu feodal dövlətlərini müəyyənləşdirin:
*1. Rey şəhərini Samanilərdən aldı*
*2. Alp Arslan tərəfindən varlığına son qoyuldu*
*3. Səlcuqların tənəzzülü dövründə yenidən müstəqil oldu*




A) 1-A; 2-B; 3-C B) 1-B; 2-C; 3-B
C) 1-C; 2-B; 3-A D) 1-A; 2-C; 3-B
E) 1-C; 2-A; 3-B

65. Şirvanşahlar dövlətinin XII əsr tarixinə ***aid deyil:***
A) Monqollar tərəfindən qarət edilməsi
B) Şirvanın Gürcüstana birləşdirmək cəhdinin qarşısının alınması
C) Səlcuq türkləri ilə dostluq münasibətlərinin bərpa edilməsi
D) Slavyan hücumuna məruz qalması
E) Gürcü çarı IV Davidin yürüşü

66. 1689-cu il İngiltərə parlamentinin qəbul etdiyi "Hüquqlar haqqında bill" qanununa əsasən:
1. Söz, mətbuat, toplaşmaq və din azadlığı hüquqlarının qorunmasına zəmanət verirdi
2. İngiltərə parlamentli monarxiyaya çevrildi
3. Kral qanunlara veto qoymaq hüququnu itirdi
4. Stüartlar sülaləsi bərpa edildi
5. Dövlət Böyük Britaniya adlanmağa başladı
A) 2,4 B) 3,5 C) 1,2 D) 4,5 E) 2,3

67. Səfəvilərin XVII əsrin II yarısı tarixi ilə bağlı ***doğru olmayan*** bəndi müəyyən edin:
A) Divan və xalisə torpaqları aparıcı mülkiyyət forması idi
B) Ali şiə ruhaniləri hakim təbəqənin ikinci qrupuna daxil idi
C) Təsərrüfata malik olmayan kəndlilər rəncbər adlanırdı
D) Elatlar orduda xidmət əvəzində az miqdarda vergi verirdi
E) Soyurqal hərbi və mülki xidmətə görə verilən şərti torpaq mülkiyyəti idi

68. I Pyotrdan fərqli olaraq II Yekaterina:
A) Qara dəniz sahillərinə çıxmaq üçün Osmanlı ilə müharibə apardı
B) Baltik dənizi sahillərinə çıxış əldə etdi
C) Qara dənizdə üzmək, Bosfor və Dardanel boğazlarından sərbəst keçmək hüququ qazandı
D) Ordu və mədəni sahədə islahatlar keçirdi
E) İsveçə qarşı ittifaq yaratdı

69. Eyler-Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin:




a. Qarabağ xanlığına uğursuz hərbi yürüş
b. "Bayat savaşı"da iştirak
c. "Qızılqaya xəyanəti"də iştirak
d. Azərbaycanın cənub torpaqlarına yürüş
e. Gavduşan döyüşündə məğlubiyyət
A) 1-e; 2-b; 3-a,d B) 1-b; 2-c; 3-d
C) 1-a,c; 2-b; 3-d D) 1-e; 2-a; 3-c
E) 1-c; 2-d; 3-e,b

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

70. Səfəvi dövlətinin XVIII əsrin 30-cu illərinə aid hadisələrin xronoloji ardıcıllığını müəyyən edin:
1. Kirmanşah sülh müqaviləsinin imzalanması
2. III Abbasın şah elan edilməsi
3. Rusiyanın Kürdən cənubdakı xəzəryanı torpaqları tərk etməsi
4. Osmanlının zəbt etdiyi bütün Səfəvi torpaqlarını tərk etməsi
A) 4,3,2,1 B) 2,1,3,4 C) 3,2,4,1
D) 1,3,2,4 E) 1,4,3,2

71. Qarabağ xanı Pənahəli xanın Fətəli xan Əfşardan asılılığa son qoymaq üçün atdığı addım:
A) Kərim xan Zəndin ittifaq təklifini qəbul etdi
B) Rusiyanı Qarabağa yürüşə başlamağa təhrik etdi
C) Məhəmmədhəsən xan Qacar ilə ittifaq qurdu
D) Şahbulaq qalasını inşa etdi
E) "Qızılqaya xəyanəti"də iştirak etdi

72. 1787-ci il ABŞ konstitusiyası üçün xarakterik ***deyil:***
A) Ştatların nümayəndələrinin iştirak etdiyi təsis məclisi tərəfindən qəbul edildi
B) ABŞ federativ respublika oldu
C) Qanunverici hakimiyyət konqresə məxsus idi
D) Prezident qanunlar üzərinə veto qoya bilərdi
E) Məhkəmənin hökmü olmadan həbslər keçirmək qadağan edildi

73. Hadisə - nəticə əlaqələrinin ***doğru*** göstərildiyi cavabı müəyyən edin:

| № | Hadisələr | Nəticələr |
|---|---|---|
| 1 | E.ə 321-ci ildə Perdikkinin öldürülməsi | Kiçik Midiyada Atropatın hakimiyyəti sona çatdı |
| 2 | Atropatena hökmdarı Ariovastın ölümü | III Antioxun Atropatenaya hücumu |
| 3 | I əsrdə Parfiyanın Atropatenanın müstəqilliyinə son qoyması | Albaniyanın Roma ilə əlaqələri gücləndirməsi |
| 4 | Antoninin sərkərdəsi Kanidini Cənubi Qafqaza göndərməsi | İber və Alban hökmdarlarının məğlub edilməsi |
| 5 | Fraaspanın Roma ordusu tərəfindən mühasirəyə alınması | Atropatena ordusunun romalıları məğlub etməsi |

A) 3,4,5 B) 1,2,3 C) 1,2,4
D) 2,3,4 E) 1,3,4

74. 2-ci mətndə verilən hökmdardan fərqli olaraq 1-ci mətndə bəhs edilən hökmdar üçün xarakterikdir:
**Mətn-1**
*Mərkəzi Asiyada yaşayan 26 tayfanı öz hakimiyyəti altında birləşdirdi. Geniş fəthlər nəticəsində dövlət imperiyaya çevrildi. Sərhədləri şərqdə Koreyadan qərbdə Xəzər dənizinə, şimalda Sibirdən cənubda Kaşğara qədər uzanırdı.*
**Mətn-2**
*Bütün ölkə üzərində hakimiyyətini möhkəmləndirərək bir sıra sahələrdə islahatlar keçirdi. İslahatları xalqa çatdırmaq üçün müxtəlif səmtlərdə 33 kitabə qoydurmuşdu. Buddizmin əsas himayədarı və təbliğatçısı kimi yadda qalmışdı.*
1. Turan taktikasından istifadə
2. E.ə III əsrdə fəaliyyət göstərməsi
3. Vahid dövlətin əsasının qoyulması
4. Yunan - Makedoniya işğalına qarşı mübarizə
A) Yalnız 1 B) 2,3 C) 1,4
D) Yalnız 3 E) 1,2

75. *Qay Yuli Sezar Qalliyadan Romaya yürüş edərək əsas rəqibi Pompeyin qüvvələrini məğlub etdi. Nəticədə Sezar rəsmi olaraq diktator oldu. Respublikanı monarxiya ilə əvəz etmək istəyi Senatda öldürülməsinə səbəb oldu.*
**Mətndə bəhs edilən hadisələrin baş verdiyi əsrə uyğun gəlir:**
1. Afina ilə Sparta arasında müharibənin başlanması
2. Karfagenin Roma əyalətinə çevrilməsi
3. German tayfalarının Qərbi Romaya yürüşlərinin genişlənməsi
4. Oktavianın Roma imperatoru olması
5. Roma poeziyasının "qızıl dövrü"nün başlanması
A) 1,2 B) 3,4 C) 1,5 D) 4,5 E) 2,4

76. Səfəvi hökmdarları Şah I Abbas ilə Məhəmməd Xudabəndə üçün ümumi cəhətdir:
A) Osmanlılar ilə müharibənin yeni mərhələsinin başlanması
B) Xəzinənin boşalması, mərkəzi hakimiyyətin daha da zəifləməsi
C) Osmanlılar ilə sülh müqaviləsinin imzalanması
D) Paytaxtın köçürülməsi
E) Azərbaycan bəylərbəyiliyinin yaradılması

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/Birlik_team1

77. Uyğunluğu müəyyən edin:




A) 1,3,4 B) 2,4,5 C) 1,4
D) 2,5 E) 1,4,5

78. Səfəvi dövlətinin XVII əsrin 60-cı illəri və XVIII əsrin 10-cu illəri tarixinə aid oxşarlığı müəyyən edin:
A) Rusiya dövləti ilə müqavilə bağlanması
B) Hacı Davudun rəhbərliyi ilə üsyan baş verməsi
C) Saray çevrilişi nəticəsində hökmdarın dəyişməsi
D) Əhalinin siyahıyaalınması keçirilməsi
E) Xəzəryanı torpaqların Rusiya tərəfindən işğalı

79. Fernando Magellanın başçılıq etdiyi ilk dünya səyahətinin nəticələrinə ***aid deyil:***
A) İspan dənizçiləri yeni okena çıxmağı bacardılar
B) Yerin kürə şəklində olması təcrübi cəhətdən qəti sübuta yetirildi
C) Bütün okeanların bir-biri ilə əlaqəli olduğu sübut edildi
D) Dənizçilər 1522-ci ildə İspaniyaya qayıda bildilər
E) Meksika, Mərkəzi və Cənubi Amerikanın böyük hissəsi İspaniyanın nəzarəti altına keçdi

80. Prut çayı sahilində imzalanan sülhə əsasən:
A) I Pyotr imperator adlandırıldı
B) Rusiya Azov qalasını Osmanlılara qaytardı
C) Kiyev də daxil olmaqla Solsahil Ukraynası və Belarusiyanın bir hissəsi Rusiyaya verildi
D) Reç Pospolita ilə tarixi düşmənçiliyə son qoyuldu
E) Şimal müharibəsi sona çatdı

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

81. Uyğunluğu müəyyən edin:




A) 1-a; 2-b B) 1-c; 2-a,b C) 1-a,c; 2-b,c
D) 1-a,b; 2-b,c E) 1-c; 2-a

82. Osmanlının XVI əsrin ikinci yarısı, İngiltərənin XVII əsrin birinci yarısı tarixləri üçün ümumi cəhəti müəyyən edin:
A) Əkbər şah ilə siyasi əlaqələrin qurulması
B) İspan donanmasının məğlub edilməsi
C) Vyana şəhərinin mühasirəyə alınması
D) Səfəvi dövləti ilə müqavilə imzalanması
E) Sənaye çevrilişinin başlanması

83. Dövlət xadimlərinin fəaliyyətinə aid olan ***doğru*** sıraları müəyyən edin:

| № | Dövlət xadimi | Fəaliyyəti |
|---|---|---|
| 1 | Teymuri hökmdarı Şahrux | Qaraqoyunlu dövlətinin asılı hala salınması |
| 2 | Xubilay xan | Yuan sülaləsinin əsasının qoyulması |
| 3 | Əlaəddin Xələc | Xarəzmşah Cəlaləddinə öz ərazisində sığınacaq verdi |
| 4 | Əkbər şah | Paytaxtı Aqra şəhərinə köçürdü |

84. Xilafətin vergi və mükəlləfiyyətlər ilə bağlı siyasətinə uyğun gəlir:
1. Əmirliyin mərkəzinin Dəbildən Bərdəyə köçürülməsi
2. Sasani dövlətinin vergi sistemini qismən dəyişiklik etməklə qüvvədə saxladı
3. Əməvilər və Abbasilər sülaləsi dövründə vergilər artırıldı
4. Müsəlman əhali xüms və zəkat ödəməli idi
5. Vəqf icarəyə verilirdi, lakin onu satmaq və bağışlamaq olmazdı

85. Xəritədə ulduz ilə işarələnmiş dövlətin tarixinə aid xüsusiyyətləri müəyyən edin:



1. XI əsrin ortalarında feodal ara müharibələri
2. Şimali Afrikada Vandal krallığının tutulması
3. V yüzilliyin sonunda meydana gəlməsi
4. Verden müqaviləsinin imzalanması

86. Nadir şahın daxili siyasətinə aiddir:
1. Məşhəd şəhərinin paytaxt seçilməsi
2. Baş vəzir və sədr-əzəm vəzifələrinin ləğvi
3. Ərdəbil, Zəncan, Xalxal, Qaradağ və Lənkəran vilayətləri hesabına Azərbaycan bəylərbəyiliyi yaratdı
4. Bağdadda Osmanlı ilə müqavilə imzaladı
5. Din xadimlərinin dövlət işlərinə müdaxiləsinin qarşısını aldı

87. Uyğunluğu müəyyən edin:
*1. İrəvan xanlığı*
*2. Naxçıvan xanlığı*
*3. Gəncə xanlığı*
a. Əsası Qacar tayfasının Ziyadoğlu nəsli tərəfindən qoyuldu
b. Gürcü çarı, Qarabağ və Xoy xanlıqlarından asılı vəziyyətə düşdü
c. Əsası Kəngərli tayfası tərəfindən qoyuldu
d. Bir müddət Qarabağ və gürcü çarlığının təyin etdiyi nümayəndələr tərəfindən idarə edilirdi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

**Sizə təqdim olunmuş mənbə əsasında tapşırıqları tarixi biliklərinizə əsasən *Cavab vərəqində* cavablandırın.**

XVII əsrin əvvəllərində Avropa, xüsusilə də Müqəddəs Roma İmperiyası dərin bir böhran içində idi. Auqsburq sülhü ilə qurulan kövrək dini müvazinət, kalvinizmin rəsmi tanınmaması və protestantlığın sürətlə yayılması fonunda sarsılmağa başlamışdı. Katolik Habsburq sülaləsinin imperiya daxilində mərkəzi hakimiyyəti gücləndirmək və katolikliyi yenidən hakim etmək cəhdləri, yerli əyanların azadlıq arzuları ilə kəskin şəkildə toqquşurdu. Zaman keçdikcə münaqişənin miqyası daha da böyüdü və Danimarka, İsveç və Fransa kimi xarici dövlətlər öz strateji maraqlarını qorumaq üçün prosesə müdaxilə etdilər. Baxmayaraq ki, müharibə dini zəmində başlamışdı, sonrakı mərhələlərdə siyasi və ərazi iddiaları üstünlük təşkil etməyə başladı. Bu proses sonda Avropanın siyasi xəritəsini kökündən dəyişdirdi.

88. Mənbədə bəhs edilən müharibədə iştirak etməyən böyük Avropa dövlətlərindən birini tarixi biliklərinizə əsasən müəyyən edin:

89. Tarixi biliklərinizə əsasən bəhs edilən müharibənin başlama və bitmə tarixlərini (1) və sonda imzalanmış sülhü (2) müəyyən edin:

90. Mənbədə bəhs edilən müharibənin Almaniya üçün nəticələrini tarixi biliklərinizə əsasən müəyyən edin: (azı 1 nəticə)

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1